

## YADDA SAXLAYIN!

- Abort etdirməkdənsə, vaxtında arzuolunmaz hamiləlikdən qorunmaq məqsədəuyğundur! Bundan ötrü müxtəlif etibarlı və təhlükəsiz üsullar mövcuddur.

- Ailənin planlaşdırılması barədə hamiləlikdən əvvəl düşünmək lazımdır. Bu sizə arzuolunmaz hamiləlik və abortdan yaxa qurtarmağa kömək edər!

- Abort qadının həyatına təhlükə yaradır və gələcəkdə onun hamilə qalmaq ehtimalını azaldan ağırlaşmalara səbəb ola bilər!

- Ana və onun körpəsinin sağlam olması üçün doğum vaxtını planlaşdırın və doğuşlararası 2 illik fasiləni gözləyin! (Ümumdünya Səhiyyə Təşkilatının tövsiyəsi)

İCTİMAİ SƏHİYYƏ VƏ İSLAHATLAR MƏRKƏZİ

Buklet “Ana və uşaqların sağlamlığının yaxşılaşdırılmasına dair 2014-2020-ci illər üçün Dövlət Proqramı”nın icrası üzrə Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin Tədbirlər Planının 7.1-ci bəndinə uyğun olaraq İctimai Səhiyyə və İslahatlar Mərkəzi tərəfindən hazırlanmış və çap edilmişdir.

www.isim.az



# *Ailəmizi* *ABORTSUZ* *planlaşdıraq!*

## BİLİRSİNİZMİ AZƏRBAYCANDA ABORTLAR HAMİLƏLİYİN NEÇƏ FAİZİNİ TƏŞKİL EDİR?

2011-ci ildə Azərbaycanda keçirilmiş sorğu göstərir ki, hamiləliklərin 41%-i süni abortlarla nəticələnir. Bu o deməkdir ki, hamiləliklərin təxminən yarısı arzuolunmazdır. Əlbəttə, elə vəziyyət yarana bilər ki, abort qaçılmaz olar (məsələn, qadının həyatına təhlükə yaranır, sosial göstərişlər var), lakin əksər hallarda arzuolunmaz hamiləliyin qarşısını almaq mümkündür.



Hamiləlikdən abort vasitəsi ilə qurtarmaqdansa, onun qarşısını almaq daha əlverişlidir, çünki bəzi hallarda abort bilavasitə və ya sonradan xoşagəlməz və hətta təhlükəli nəticələrə gətirə bilər:

- Uşaqlıqdankənar hamiləlik ehtimalı bir neçə dəfə artır
- Infeksion fəsadların ehtimalı böyükdür
- Uşaqlığın deşilməsi ehtimalı var



- Müəyyən hallarda sonsuzluq yarana bilər
- Sonrakı doğuşlarda fəsadların ehtimalı artır və bununla bağlı yenidoğulmuşların xəstələnmə, şikəstlik və ölüm halları çoxalır
- Vaxtından əvvəl doğuşlar və özbaşına düşüklərin (uşaqsalmaların) sayı artır
- Kiçik çanaq orqanlarının iltihabi xəstəliklərinin sayı artır
- Abortun uzun müddətdən sonra baş verən fəsadları arasında ən çox rast gələnən hormonal pozuntular nəticəsində süd vəzisinin xoş və bəd xassəli şişlərinin yaranma ehtimalı artır

Abort etdirən hamilələrin bir qismi yeniyetmələr və çox gənc qadınlardır. Onlar etdikləri hərəkətin mahiyyətini tam anlamırlar və sonra ömür boyu buna görə peşman ola bilərlər.